# Gənclərimizin milli mənlik şüurunun inkişafı və müasir ədəbiyyatın təsirləri...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Ədəbiyyatın, poeziya və nəsrin gənclərin milli mənlik şüurunun inkişafına müsbət mənada təsiri danılmazdır. Heş şübhəsiz ki, gənc nəslin vətənpərvərlik hisslərinin, ruhunun formalaşmasında müasir ədəbiyyatın, nəsr əsərlərinin oynadığı rol diqqəti cəlb etməyə bilmir. Gənc nəsil müasir yazçı və şairlərin əsərlərindən güc alaraq sabaha inamla addımlamalıdır.**



Çağdaş yazarlarımız elə yazmalıdır ki, o əsərlərlə milli şüura sahib vətənpərvər gənclik yetişsin. Bilirik ki, yüksək peşəkarlıqla yazılan hər yazılan əsər gəncliyin yoluna işıq saçmalıdır. İkinci Dünya Müharibəsində Azərbaycan xalqının böyük yazıçı və şairləri döyüşən orduya ruh vermək üçün saysız əsərlər yaradıb. Ədəbiyyat, poeziya, nəsr, maraqlı publisistika nümunələrinin əksəriyyəti müharibədən sonra yarandı və burada şairlərimiz, yazıçılarımız əhəmiyyətli rol oynadı. Azərbaycanda gənc nəslin milli mənlik şüurunun və vətənpərvərlik tərbiyəsinin formalaşmasında bədii əsərlərin rolu ölçüyəgəlməzdir. Biz xalq olaraq Vətən müharibəsində zəfər qazanmışıq və böyük qəhrəmanlıq irsinə sahibik. Bu irsə əbədiyyən sahib çıxmağımız üçün bizdən öz ideologiyamıza sadiqlik, azərbaycançılığa möhkəm bağlılığımız tələb olunur. İnsanları isə milli ideologiyaya ədəbiyyat, mədəniyyət bağlayır. Post müharibə dövründə gənclərimizə gərək olan ən başlıca məsələlərdən biri məhz onların daim vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Hər bir yazıçının, şairin vəzifəsi dövlətə, millətə sədaqətli olmaq, gənc nəsilə öz vətənpərvərlik töhfəsini verməkdir.

Müasir ədəbiyyatda diqqəti cəlb edən əsas amillərdən birinin gənc nəslin vətənpərvərlik hisslərinin formalaşmasına töhfə vermək olduğu bizi sevindirir. Xüsusən də müharibədən sonrakı dövrdə yazıçılarımız, şairlərimiz daha çox bu yöndə çalışır, maraqlı bədii əsərlər yazırlar. Son dövrlər Vətən müharibəsi qəhrəmanlarının həyatından, döyüş yolundan, qəhrəmanlığından bəhs edən əsərlər yaranır. Bu əsərlər gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında çox güclü rol oynayır. Yetər ki, onları daha böyük auditoriyalara çıxarıb təbliğ edəsən. Vətənpərvərlik ruhlu əsərləri geniş təbliğ etmək, çap edib yaymaq, internet resurslarında yerləşdirmək lazımdır ki, daha çox gənc ondan bəhrələnsin.

### "...vətənpərvərlik hisslərinin formalaşmasında mühüm rol oynayıb"

Filologiya üzrə fəlsəfə doktoru Elyar İslamoğlu bizimlə söhbətində bildirdi ki, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsində ədəbiyyatın doğrudan da xüsusi rolu olmalıdır. "Bizim keçmişdən bu günə qədər olan şair və yazçılarımız yazdıqları əsərlərdə hər zaman milli vətənpərvərlik hisslərini önə çəkiblər. Həmçinin bizim alimlərimizin topladıqları folklor nümunələrində tərbiyəvi əhəmiyyətə malik olan mətnlər, nümunələr çoxdur. Həmin ədəbiyyat, folklor nümunələri zaman-zaman gənc nəslin tərbiyəsində, onların vətənpərvərlik hisslərinin formalaşmasında mühüm rol oynayıb. Gənc nəsilin öz yurdunu, vətənini, xalqını sevməsində, yurd-yuvasını düşməndən müdafiə etməsində böyük əhəmiyyətə malik olub. Biz "Dədə Qorqud", "Koroğlu" dastanlarına, onlardan sonra yaranan yazılı ədəbiyyat nümunələrinə baxanda orada tərbiyəvi əhəmiyyətli çoxlu əsərlər görürük. O əsərlərdə xalqa, Vətənə, insanlığa sevgi, yardımlaşma, vicdan hisslərinin formalaşması, insanların bir-birinə dayaq olması, vətənini müdafiə etməsi, onu qoruması kimi amillər var ki, bunlar gənc nəsilin şüuruna müsbət mənada təsir edir".

### "Bizə bu gün nümunəvi gənclik yetişdirən əsərlər daha çox lazımdır"

E.İslamoğlunun bu ideyanın müasir ədəbiyyatda, nəsr əsərlərində inkasına gəlincə, bir qədər fərqli düşünür. Alim hesab edir ki, biz müasir nəsr əsərlərində o qədər də tərbiyəvi əhəmiyyətli əsərlərə rast gəlmirik. "Mən özüm gündəmi izləyənlərdən biriyəm. Müasir şairlərimizin, yazçılarımızın əsərlərində, şeirlərində kütləvi olaraq elə də tərbiyəvi məsələləri görmürəm. Bəzi gənc şairlərdən çox narazıyam. Çünki onlar gənc nəsil üçün bir nümunədir. Sosial şəbəkələrdən istifadə edən gənc yazarların çoxunun yaradıcılığında vətənpərvərlik mövzusuna yer verilmir, onlar daha çox qızlardan yazılar, eləcə də qeyri-əxlaqi statuslar paylaşırlar. Bununla bağlı dəfələrlə fikirlərimi bildirmişəm. Düşünürəm ki, cəmiyyətə nümunə olacaq şəxslər müəyyən məsələlərlə məşğul olub onu öz əsərlərində təbliğ etməməlidir. Çünki yaranan hər bir əsər, şeir özündən sonrakı nəsil üçün qalır, gələcək nəsillər həmin əsərlərdən nümunəvi nəsə əldə etməlidirlər. Bu gün ədəbiyyat nümunəni yaradan şəxslər qeyri-əxlaqi məsələləri, içkini, narkotiki təbliğ edəcəklərsə onların yazdıqlarının gənc nəslin vətənpərvərlik hisslərinin tərbiyəsində heç bir rolu olmayacaq. Yaxşı olar ki, istər şairlərimiz, istərsə də yazıçılarımız müasir gəncliyin milli şüurunun və vətənpərvərlik hisslərinin formalaşması üçün dəyərli əsərlər yazmalıdır. Hesab edirəm ki, bu əsərlər elə yazılmalıdır onlar gələcək nəsillər üçün istinad yeri olmalıdır. Yəni yazçı və şairlərimiz elə əsərlər yazmalıdır ki, onların gənc nəsilin vətənpərvərlik ruhunun inkişafında mühüm rol oynasın. Həm də onları vicdanlı şəxsiyyətlər kimi yetişdirə bilsinlər. Bizə bu gün nümunəvi gənclik yetişdirən əsərlər daha çox lazımdır. Hesab edirəm ki, indiyə qədər yazılanlar öz yerində, bundan sonra daha ciddi əsərlər yazılmalıdır".

E.İslamoğlunun fikrincə, biz bir neçə əsərlə kifayətlənməməliyik, bu mövzuda əsərlər daima yazılmalıdır ki, gənc nəsil ondan bəhrələnsin.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**